MORQAN HAUZEL

# Pulun Psixologiyası

## SƏRVƏT, HƏRİSLİK VƏ XOŞBƏXTLİK HAQQINDA TÜKƏNMƏZ DƏRSLƏR

İngilis dilindən tərcümə edən:
Elçin Həsənov

qanun nəşriyyatı

MORGAN HOUSEL

# The Psychology of Money

## TIMELESS LESSONS ON WEALTH, GREED, AND HAPPINESS

Əlinizdə tutduğunuz kitab həyatın ən vacib mövzularından biri olan pul məsələlərini daha yaxşı anlamağı öyrədən hekayələr toplusudur.

Morqan Hauzel daha düzgün maliyyə qərarları qəbul etmək və sərvət sahibi olmaq üçün insan davranışını anlamağın vacibliyindən danışır. Çünki pullarınızın idarə edilməsi sizin birbaşa olaraq biliyinizdən deyil, məhz ona münasibətinizdən asılıdır. Bəzən çox ağıllı insanlara belə bunları öyrənmək çətin gəlir.

Bu, düşüncə tərzini dəyişməklə maddi rifahını qaldırmağı qarşısına məqsəd qoyan insanlar üçün səhifələrində dəyərli məsləhətlər verən kitablardandır. Siz maliyyə fırıldaqlarını anlaya biləcək, lazım gəldiyi təqdirdə ifrat xərclər etməkdən qaça biləcəksiniz.

**Morgan Housel** **THE PSYCHOLOGY OF MONEY:**
**timeless lessons on wealth, greed, and happiness**
**Morqan Hauzel** **PULUN PSİXOLOGİYASI:**
**sərvət, hərislik və xoşbəxtlik haqqında tükənməz dərslər**
Bakı, Qanun Nəşriyyatı, 2024, 304 səh.

Janr: non-fiction/özünüinkişaf
Yaş qrupu: 16+
Ölçü: 145x215 mm
Cild: yumşaq
Çapa imzalandı: 08.07.2024

Naşir: Şahbaz Xuduoğlu
İngilis dilindən
tərcümə edən: Elçin Həsənov
Redaktor: Ramilə İsayeva
Korrektor: Bəsti Məmmədova
Texniki redaktor: Əsəd Qaraqaplan
Mətn dizaynı: Ramin Əli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-986-9

© Qanun Nəşriyyatı, 2024
Copyright © Harriman House Ltd

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

Məni öyrədən valideynlərimə
Mənə yol göstərən Gretchen-ə
Məni ruhlandıran Miles və Reese-yə
HƏSR OLUNUR

# Mündəricat


Giriş: Yer üzündəki ən möhtəşəm şou .......................11
1. Heç kim dəli deyil .......................21
2. Uğur və risk .......................37
3. Heç vaxt kifayət deyil .......................53
4. Çaşdırıcı artım .......................65
5. Varlanmaq və ya zəngin qalmaq .......................75
6. Zatən nəticə qalib gələcək .......................91
7. Azadlıq .......................105
8. Avtomobildəki adamın paradoksu .......................117
9. Sərvət – sizin görə bilmədiyiniz şeydir .......................123
10. Pula qənaət edin .......................131
11. Məntiqli > Rasional .......................143
12. Sürpriz! .......................155
13. Xətalı məkan .......................171
14. Siz dəyişəcəksiniz .......................185
15. Pulsuz heç nə yoxdur .......................195
16. Sən və mən .......................207
17. Bədbinliyin vəsvəsəsi .......................219
18. Hər şeyə inandığınız zaman .......................235
19. İndi hamısı bir-biri ilə bağlı .......................253
20. Etiraflar .......................263
P.S.: ABŞ-də istehlakçının niyə bu cür düşündüklərinin qısa icmalı .......................275
Qeydlər .......................297
Təşəkkürlər .......................303

*“Dahi o insandır ki, ətrafındakı hər kəs dəli olarkən, o, adi işlər görə bilir”.*

– Napoleon

*“Dünya heç kimin fərqinə varmadığı aşkar şeylərlə doludur”.*

– Şerlok Holms

# GİRİŞ
# Yer üzündəki ən möhtəşəm şou

Kollec illərimi Los-Ancelesdə gözəl bir oteldə xidmətçi kimi işləmişəm.

Tez-tez gələn qonaqlardan biri texniki direktor idi. O, 20 yaşlarında Wi-Fi marşrutlaşdırıcılarının əsas komponentini layihələndirən və patentləşdirən dahi idi. O, bir neçə şirkət qurub satmışdı. Bu, ağlasığmaz bir uğur idi.

Onun pula qarşı elə münasibəti var idi ki, mən onu etibarsızlıq və uşaq axmaqlığının qarışığı kimi təsvir edərdim.

Onun əlində bir neçə düym qalınlığında yüz dollarlıq əsginas yığını olardı. O bunu lazım oldu-olmadı hər kəsə göstərərdi. O, öz var-dövləti ilə açıq şəkildə və yüksək səslə öyünər, tez-tez sərxoş olub yerli-yersiz danışardı.

Bir gün o, həmkarlarımdan birinə bir neçə min dollar pul verib dedi: "Get küçədəki zərgərlik mağazasına və mənə 1000 dollarlıq qızıl sikkə al".

Bir saat sonra əlində qızıl sikkələr texniki direktor və dostları Sakit Okeanın sahilində toplandılar. Sonra onlar

sikkələri dənizə ataraq hansının daha uzağa getdiyini mübahisə etməyə başladılar. Bu sadəcə bir əyləncə idi.

Bir neçə gün sonra o, otelin restoranında lampanı sındırdı. Menecer ona dedi ki, bu, 500 dollarlıq lampadır və o onu mütləq dəyişdirməli olacaq.

– "Beş yüz dollar istəyirsən?" – müdir inamsızcasına soruşdu və cibindən bir dəstə pul çıxarıb menecerə uzatdı. "Budur, beş min dollar. İndi itil gözümdən! Və bir daha məni belə təhqir etmə".

Bu davranışın nə qədər davam edə biləcəyi sizi maraqlandıra bilər və cavab budur: "Bu, uzun müddət çəkmədi". İllər sonra bildim ki, o, müflis olub.

Bu kitabın əsas prinsipi ondan ibarətdir ki, pulla uğur qazanmağınız nə qədər ağıllı olduğunuzdan yox, özünüzü necə aparmağınızdan asılıdır. Bu spesifik davranışı hətta çox ağıllı insanlara öyrətmək belə çətindir.

Duyğularına və emosiyalarına nəzarəti itirən hansısa bir dahi kəs maliyyə fəlakəti ilə üzləşə bilər. Maliyyə təhsili olmayan adi insanlar, formal İQ ilə heç bir əlaqəsi olmayan bir neçə davranış bacarıqlarına sahib olsalar, o zaman zəngin ola bilərlər.

---

Ən çox sevdiyim Vikipediya məqaləsi belə başlayır: "Ronald Ceyms Rid – amerikalı xeyriyyəçi, investor süpürgəçi və yanacaqdoldurma məntəqəsinin işçisi idi".

Ronald Rid Vermont kəndində anadan olub. O, ailəsində orta məktəbi bitirən ilk insan idi, o, hər gün kampusa piyada gedərdi və bu fakt onun tərcümeyi-halında daha da təsiredici rol oynayırdı.

Ronald Ridi tanıyanlar üçün başqa sözə ehtiyac yox idi. Onun həyatı mümkün qədər təvazökar idi.

O, 25 il yanacaqdoldurma məntəqəsində avtomobil təmirçisi işlədi və 17 il "JCPenney"də döşəmələrin süpürülməsi ilə məşğul oldu. O, 38 yaşında 12 min dollara ikiotaqlı ev alıb və ömrünün sonuna qədər orada yaşayıb. O, 50 yaşında dul qalıb və bir daha evlənməyib. Bir dostu deyirdi ki, onun əsas hobbisi odun doğramaq idi.

Rid 2014-cü ildə 92 yaşında vəfat edib. Məhz o zaman o, təvazökar kənd təmizləyəçisi, beynəlxalq qəzetlərin səhifələrinə düşdü.

2014-cü ildə 2.813.503 amerikalı öldü. Onlardan 4000-dən azının öldüyü vaxt sərvəti 8 milyon dollardan çox idi. Ronald Rid onlardan biri idi.

Keçmiş süpürgəçi vəsiyyətində övladlığa götürdüyü uşaqları üçün 2 milyon dollar, yerli xəstəxana və kitabxana üçün isə 6 milyon dollardan çox pul qoyub.

Ridi tanıyanlar çaş-baş qaldılar. O bu qədər pulu haradan götürüb?

Məlum oldu ki, burada heç bir sirr yoxdur. Lotereya uduşu, miras yox idi. Rid bacardığı qədər pula qənaət edirdi və "mavi markalı" səhmlərə investisiya etmişdir. Daha sonra o, onilliklər boyu qənaət etdiyi pulun 8 milyon dollara qədər artmasını çox böyük səbir ilə gözləmişdir.

Hamısı bu qədər. Süpürgəçidən xeyriyyəçiyə qədər yaşanan yol.

Ronald Ridin ölümündən bir neçə ay əvvəl xəbərlərdə Riçard adlı başqa bir adamın adı çıxdı.

Riçard Faskon, Ronald Ridin tam əksi idi. Harvard təhsilli "Merrill Lynch"in MBA dərəcəsinə malik olan Faskon